

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

10 sentyabr 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 34 (3797)

# Güclü dövlət, çevik diplomatiya



## Beynəlxalq arenada Azərbaycan mühüm söz sahibinə çevrilir

Azərbaycanın beynəlxalq mövqeyi hər keçən gün daha da möhkəmlənir, qlobal proseslərdəki rolu və nüfuzu artır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən xarici siyasət kursu və çoxşaxəli diplomatiya sayəsində Azərbaycan regionun lider dövləti olmaqla yanaşı, həm də qlobal miqyasda söz sahibi olan, etibarlı tərəfdaş kimi qəbul edilir.

Dövlət başçısının fərqli xarici ölkələrə intensiv səfərlər həyata keçirməsi Azərbaycan diplomatiyasının dinamikliyini, geniş coğrafiyanı əhatə etməsini və müxtəlif güc mərkəzləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlığa malik olduğunu aydın şəkildə nümayiş etdirir. Cari ilin yanvar ayından keçən dövr ərzində Prezident İlham Əliyev 10 xarici ölkəyə ümumilikdə 12 səfər edib. Bu statistik göstərici özlüyündə diplomatiyamızın nə qədər məhsuldar və çevik olmasının sübutudur.

Fərqli regionları və siyasi-iqtisadi sistemləri əhatə edən bu mühüm səfərlər sıradan diplomatik təmaslar olmayıb, hər biri Azərbaycanın milli maraqlarının təmin edilməsinə, strateji tərəfdaşlıqların dərinləşdirilməsinə və qlobal müstəvidə yeni imkanların açılmasına xidmət edən mühüm tarixi hadisələrə çevrilib.

Dövlət başçısının Almaniya, İsveçrə və Serbiyaya səfərləri Azərbaycanın Avropanın enerji təhlükəsizliyi, nəqliyyat-logistika əlaqələri və təhlükəsizlik arxitekturasındakı mühüm rolunu bir daha nümayiş etdirib. Səfərlər çərçivəsində keçirilən yüksək səviyyəli görüşlər və imzalanan sənədlər Azərbaycanın Avropa dövlətləri ilə uzunmüddətli əməkdaşlığının genişlənməsinə yeni imkanlar yaradıb. Dövlət başçısının Amerika Birləşmiş Ştatlarına səfəri də qlobal siyasi arenada Azərbaycanın nüfuzunun artmasının, Vaşinqtonla Bakı arasında strateji dialoqun və qarşılıqlı maraqlara söykənən münasibətlərin inkişafının göstəricisidir. Uğurlu xarici siyasətin davamı olaraq Birləşmiş Ərəb Əmirliklərinə səfər isə iqtisadi-ticarət əlaqələrinin, bərpaolunan enerji sahəsində əməkdaşlığın genişlənməsinə, eləcə də Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələrə yeni investisiyaların cəlbinə mühüm imkanlar yaradıb.

Azərbaycanın xarici siyasətində qonşuluq münasibətləri və qardaş ölkələrlə strateji müttəfiqlik hər zaman prioritet təşkil edir. Bu xüsusda Mərkəzi Asiya dövlətləri - Qazaxıstan, Qırğızıstan və Özbəkistana həyata keçirilən səfərlər xüsusi əhəmiyyət kəsb edir. Həmin ölkələrin dövlət başçılarının xüsusi dəvəti ilə baş tutan bu səfərlər Mərkəzi Asiya liderlərinin Azərbaycan Prezidentinin şəxsi nüfuzuna, siyasi müdrikliyinə dərin hörmətinin, eləcə də ölkəmizin regiondakı həlledici roluna verilən yüksək dəyərin təcəssümüdür. Mərkəzi Asiya ölkələrinə səfərlərin müstəsna əhəmiyyəti həm də onunla şərtlənir ki, Azərbaycan bu regionu Avropa bazarları ilə birləşdirən strateji körpü, türk dünyasının inteqrasiyasının əsas mərkəzidir.

Qardaş Türkiyə ilə sarsılmaz müttəfiqlik münasibətləri və Gürcüstanla regional kommunikasiyaların inkişafı istiqamətində atılan addımlar da bu geostrateji xəttin ayrılmaz tərkib hissəsidir.

Azərbaycan Prezidentinin xarici ölkələrə intensiv səfərləri, o cümlədən tərəfdaşlıq, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin inkişafı ilə bağlı verdiyi mesajlar göstərir ki, Azərbaycan geniş coğrafiyada sabitliyin, təhlükəsizliyin və tərəqqinin əsas təşəbbüskarı kimi çıxış edir.

# Polis tarixi-mədəni sərvətlərimizin keşiyindədir

## Tarixin izlərini birgə qorumaq vətəndaşlıq borcumuzdur

Tarix yalnız kitablarda yazılanlardan ibarət deyil. Bəzən əsrlərin yaddaşı bir qala divarında, qədim daşın üzərində, memarlıq abidəsinin naxışlarında yaşayır. Bu günümüzə qədər gəlib çatan hər bir tarixi abidə keçmişlə gələcək arasında körpü, xalqın milli yaddaşının bir parçasıdır. Onları qorumaq isə tariximizə, mədəniyyətimizə və gələcək nəsillərə qarşı məsuliyyətimizdir.

Təəssüf ki, bəzən tarixi abidələrin, qədim tikililərin və qayaların üzərinə müxtəlif yazıların yazılması, təsvirlərin çəkilməsi, onların ayrı-ayrı hissələrinin zədələnməsi kimi hallarla qarşılaşırıq.

*(Ardı 2-ci səhifədə)*

# Balıqçılıqda yeni mövsüm, yeni qaydalar

## Bu sahədə nəzarət və mühafizə tədbirləri daha da gücləndirilir

Azərbaycanda balıqçılıq sahəsində yeni mərhələ başlayıb. Prezident İlham Əliyev avqustun 27-də "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının 14 iyul 2026-cı il tarixli Qanununun tətbiqinin təmin edilməsi məqsədilə Fərman imzalayıb.

Yeni hüquqi mexanizmlər balıqçılığın təşkili və idarə olunması, su bioresurslarının mühafizəsi, onların səmərəli istifadəsi, eləcə də bu sahədə dövlət nəzarətinin müasir tələblərə uyğun qurulmasını nəzərdə tutur.

*(Ardı 2-ci səhifədə)*

# Prezident İlham Əliyev Ciorcia Meloninі təbrik edib

## Azərbaycan-İtaliya strateji tərəfdaşlığının əhəmiyyəti vurğulanıb

Prezident İlham Əliyev İtaliya Respublikasının Baş naziri Ciorcia Meloninі ölkə tarixində bu vəzifədə ən uzun müddət çalışan şəxs olması münasibətilə təbrik edib. Dövlət başçısı bu nailiyyətin Ciorcia Meloninin güclü liderliyinin, siyasi qətiyyətinin və İtaliya xalqının ona etimadının göstəricisi olduğunu bildirib. Prezident İlham Əliyev Baş nazirin Azərbaycan-İtaliya strateji tərəfdaşlığının möhkəmləndirilməsinə verdiyi töhfəni yüksək qiymətləndirib, iki ölkə arasında dostluq və qarşılıqlı faydalı əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə edib.

# Azərbaycan və Rusiya liderləri arasında telefon danışığı olub

## İkitərəfli əməkdaşlığın aktual məsələləri müzakirə edilib

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı dövlət başçıları iqtisadi-ticari və humanitar əməkdaşlığın aktual məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Söhbət zamanı Azərbaycan-Rusiya əlaqələrinin müxtəlif səviyyələrdə intensivləşdirilməsi barədə razılıq əldə olunub.

# Sülh və əməkdaşlıq gündəliyi

## Ölkə başçısı BMT və ATƏT nümayəndələrini qəbul edib

Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietronu və BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident-əlaqələndiricisi Dmitro Şlapaçenkonu qəbul edib.

ATƏT PA-nın prezidenti ilə görüşdə Azərbaycan-Ermənistan sülh gündəliyində əldə olunan nailiyyətlər, regionda davamlı sülhün təmin edilməsi, siyasi dialoq, mədəniyyətlərarası əməkdaşlıq və mina problemi müzakirə olunub.

BMT-nin yeni rezident-əlaqələndiricisi ilə görüş zamanı o, etimadnaməsini dövlət başçısına təqdim edib. Görüşdə Azərbaycanla BMT arasında uğurlu əməkdaşlıqdan bəhs edilib, təşkilatın ölkəmizdə həyata keçirilən inkişaf proqramlarına, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərinə dəstək imkanları müzakirə olunub.

DİN AMERİPOL-da müşahidəçi statusu əldə edib — 2



Məktəb yollarında "Diqqət, uşaqlar!" — 3



Döyməni onu ələ verdi — 4



Dünya polisinin maraqlı təcrübələri — 4



# DİN AMERİPOL-da müşahidəçi statusu əldə edib

## Beynəlxalq əməkdaşlıq genişlənir




Amerika Polis Qüvvələri Birliyinin (AMERİPOL) Direktorlar Şurasının 5-ci Fövqəladə Sammiti çərçivəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin təşkilatda müşahidəçi statusunda təmsil olunması təmin edilib.

Müvafiq status Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin AMERİPOL-a üzv dövlətlərin aidiyyəti hüquq-mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, beynəlxalq polis əməkdaşlığı çərçivəsində qarşılıqlı məlumat və qabaqcıl təcrübə mübadiləsinin aparılması, eləcə də təşkilatın müvafiq tədbirlərində iştirak imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Müşahidəçi statusu eyni zamanda transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq, ekstremizm, insan alveri və digər müasir təhdidlərə qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın daha da inkişaf etdirilməsinə xidmət edir.

# Respublika Xəbərləri

### Avropa İttifaqı ilə əlaqələr genişlənir

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında yeni ikitərəfli saziş üzrə danışıqlara başlanılıb. Danışıqların sentyabrın sonunda davam etdirilməsi nəzərdə tutulur. Tərəflər, həmçinin enerji və ticarət sahələrində əməkdaşlığı genişləndirəcək Tərəfdaşlıq Prioritetləri adlı sənədin mətnini ilkin olaraq razılaşdırıblar.

### Gürcüstanın media nümayəndələri Şuşada

Gürcüstanlı jurnalist və bloqerlər Şuşa şəhərinə səfər edərək şəhərin tarixi, mədəni və tarixi-memarlıq abidələri ilə tanış olublar. Səfər çərçivəsində qonaqlar Xurşidbanu Natəvanın saray kompleksini, Şuşa qalasını, Gövhər ağa məscidini və Cıdır düzünü ziyarət ediblər.

### Azərbaycan vitse-sədr seçilib

Türkmənistan 2027–2028-ci illər üçün Dənizə Çıxışı Olmayan İnkişaf Etməkdə Olan Ölkələr Qrupuna sədr, Azərbaycan isə vitse-sədr seçilib. Qrup 32 ölkənin maraqlarını təmsil edir və fəaliyyətinin əsas istiqamətləri enerji, nəqliyyat və beynəlxalq əməkdaşlıq məsələlərini əhatə edir.

### Bakıdan regional enerji təşəbbüsü

Bakıda fəaliyyət göstərən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Təmiz Enerji Mərkəzi üzv ölkələrin bərpa olunan enerji və enerji səmərəliliyi sahəsində qanunvericiliyini vahid topluda birləşdirir. Bu toplu əsasında İƏT ölkələri üçün müvafiq sahələr üzrə model qanunun hazırlanması nəzərdə tutulur.

### Ölkədə pul bazası artıb

Sentyabrın 1-nə Azərbaycanda pul bazası 24 milyard 238,8 milyon manat təşkil edib. Göstərici avqustla müqayisədə 1,2%, ilin əvvəli ilə müqayisədə 7,9%, son bir ildə isə 14,8% artıb.

### Minalar zərərsizləşdirilib

Avqustun 31-dən sentyabrın 6-dək azad edilmiş ərazilərdə 28 tank əleyhinə mina, 140 piyada əleyhinə mina və 1 390 digər partlayıcı hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Həmin müddətdə 1 706,4 hektar ərazi minalardan təmizlənib.

### Mərkəzi Bankın ehtiyatları rekord həddə çatıb

Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları ilin əvvəlindən 3,8 milyard dollar və ya 33% artaraq 15,3 milyard dollara çatıb. Təkcə avqust ayında valyuta bazarında 1,5 milyard dollar məbləğində alış həyata keçirilib. Bununla Mərkəzi Bankın valyuta ehtiyatları tarixi maksimuma yüksəlib.

# Polis tarixi-mədəni sərvətlərimizin keşiyindədir

## Tarixin izlərini birgə qorumaq vətəndaşlıq borcumuzdur

*(Əvvəli 1-ci səhifədə)*

İçərişəhərin qala divarlarından Şuşanın tarixi qayalarınadək belə hər bir fakt ictimaiyyət tərəfindən haqlı narazılıqla qarşılanır. Kimsə qədim daşın üzərinə boya ilə adını yazır, digəri hansısa ifadəni həkk edir, başqa biri isə tarixi tikilinin divarını oymaqla korlayır. İlk baxışdan kiçik görünən belə bir hərəkət əslində əsrlərdən keçərək bizə gəlib çatan milli sərvətə vurulan zərbədir. Çünki tarixi abidə adi divar deyil. O divarın, o daşın, o qayanın üzərində xalqımızın keçmişinin izləri yaşayır. Xüsusilə Şuşada və işğaldan azad edilmiş digər ərazilərimizdə yerləşən tarixi-mədəni irs nümunələri xalqımız üçün müstəsna mənəvi əhəmiyyət daşıyır. Bu torpaqların azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi hər birimiz üçün müqəddəsdir. Lakin şəhidlərimizin adlarının tarixi qayalara və abidələrə həkk olunması onların xatirəsinə ehtiramın doğru ifadəsi sayıla bilməz. Dövlətimiz şəhidlərimizin xatirəsini memorial komplekslər, abidələr və digər layihələrlə əbədiləşdirir. Onların əziz xatirəsinə ən böyük ehtiramlardan biri də uğrunda canlarını fəda etdikləri Vətənin tarixinə, mədəniyyətinə və milli sərvətlərinə sahib çıxmaqdır.

### ►*Milli irsimizin mühafizəsi*

Tarixi və mədəni irsin qorunması ümumdövlət əhəmiyyətli məsələ olmaqla yanaşı, bu sahədə ictimai məsuliyyət də xüsusi əhəmiyyət daşıyır. Daxili işlər orqanları da səlahiyyətləri çərçivəsində tarixi-mədəni irs nümunələrinə qarşı hüquqazidd əməllərin qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçirirlər. Polis əməkdaşları xidmət apardıqları ərazilərdə ictimai asayişin təmin olunması ilə yanaşı, tarixi abidələrin, mədəniyyət obyektlərinin və digər ictimai əhəmiyyətli məkanların mühafizəsinə də diqqət yetirirlər. Belə obyektlərin zədələnməsi, üzərlərinə yazıların yazılması, müxtəlif təsvirlərin çəkilməsi və digər vandalizm halları barədə məlumat daxil olduqda fakt araşdırılır, əməli törədən şəxslərin müəyyənləşdirilməsi və qanunvericiliyə uyğun tədbirlərin görülməsi təmin edilir. Zəruri hallarda ərazidəki müşahidə kameralarının görüntüləri nəzərdən keçirilir, şahidlər müəyyənləşdirilir və digər araşdırma tədbirləri həyata keçirilir. Eyni zamanda, belə halların baş vermə ehtimalı olan ərazilərdə profilaktik tədbirlərin gücləndirilməsi, vətəndaşlarla izahedici söhbətlərin aparılması və ictimai nəzarətin artırılması mühüm əhəmiyyət daşıyır. Burada məqsəd yalnız hüquq pozuntusu baş verdikdən sonra təqsirkarı müəyyənləşdirmək deyil. Əsas hədəflərdən biri belə əməllərin qarşısını əvvəlcədən almaq, xüsusilə gənclər arasında tarixi-mədəni irsə hörmət hissini gücləndirməkdir. Çünki polis üçün ictimai təhlükəsizliyin qorunması yalnız küçələrdə asayişin təmin olunması demək deyil. Vətəndaşların ümumi istifadəsində olan məkanların, dövlət və ictimai əmlakın, eləcə də xalqımıza məxsus milli-mədəni dəyərlərin hüquqazidd əməllərdən qorunması da bu fəaliyyətin mühüm istiqamətlərindəndir.

### ►*Məsuliyyət hər birimizdən başlayır*

Heç bir tarixi abidənin yanında daimi polis əməkdaşının dayanması mümkün deyil və buna ehtiyac da olmamalıdır. Əgər cəmiyyətdə tarixi irsə münasibətdə yüksək məsuliyyət formalaşıbsa, ən güclü mühafizə elə ictimai şüurun özüdür. Valideyn övladına qədim abidənin niyə qorunmalı olduğunu izah etməli, müəllim şagirdinə onun tarixi dəyərini anlatmalı, vətəndaş isə belə bir hüquqazidd əmələ şahid olduqda laqeyd qalmamalıdır. Tarixi abidələrin üzərinə yazı yazmaq və ya başqa formada zədələmək özündən sonra “iz” qoymaq deyil. Əksinə, bizdən əvvəlki nəsillərin qoruyaraq bu günə çatdırdığı izləri silməkdir.

Eyni münasibət təbiətimizə də göstərilməlidir. Meşələr, ağaclar, parklar, çaylar, qayalar və digər təbii sərvətlər də gələcək nəsillərə ötürülməli olan milli sərvətlərimizdir. Tarixi abidəyə zərər vurmaqla, ağacı məhv etmək, yaşıllığı korlamaq və ətraf mühiti çirkləndirmək arasında məsuliyyət baxımından mühüm bir ortaq cəhət var: hər iki halda bizə əmanət edilən dəyərə zərər vurulur.

Tarixi-mədəni irsin qorunması yalnız aidiyyəti dövlət qurumlarının və ya polisin vəzifəsi kimi qəbul edilməməlidir. Burada polisin profilaktik fəaliyyəti və vətəndaş məsuliyyəti bir-birini tamamlamalıdır.

Bu gün qoruduğumuz hər bir tarixi daş sabah övladlarımız üçün keçmişimizi danışan canlı şahid olacaq. Tarixi abidələr üzərində ad yazmaq, onları zədələmək keçmişimizə və milli-mədəni irsimizə qarşı məsuliyyətsiz münasibətdir. Əsrlərin yadigarı olan bu abidələri qorumaq hər birimizin vətəndaşlıq borcudur. Çünki tarixi irsimizi qorumaq milli yaddaşımızı yaşatmaq, keçmişimizin izlərini gələcək nəsillərə ötürmək deməkdir.

# Balıqçılıqda yeni mövsüm, yeni qaydalar

## Bu sahədə nəzarət və mühafizə tədbirləri daha da gücləndirilir

*(Əvvəli 1-ci səhifədə)*



Yeni qaydaların tətbiqinə başlanıldığı dövrdə balıq ovu mövsümü də açılıb. Balıqların kürüləmə dövrü ilə əlaqədar mayın 1-dən sənaye məqsədilə balıq və digər su bioresurslarının ovuna tətbiq olunan mövsümi qadağa sentyabrın 1-də başa çatıb. Beləliklə, Xəzər dənizində, Kür çayında, Sarısu gölündə, Mingəçevir, Şəmkir, Araz və Yenikənd su anbarlarında müəyyən edilmiş qaydalara uyğun olaraq balıq ovu mövsümü açıq elan olunub.

Lakin mövsümi qadağanın başa çatması balıq ovunun nəzarətsiz və istənilən üsulla həyata keçirilə biləcəyi anlamına gəlmir. Əksinə, yeni “Balıqçılıq haqqında” Qanun bu sahədə məsuliyyəti və nəzarət mexanizmlərini daha aydın şəkildə müəyyənləşdirir. Qanuna əsasən, balıq ovu müəyyən edilmiş qaydada balıqovlama bileti əsasında həyata keçirilir, ov üçün kvotalar müəyyən edilir. Bununla yanaşı, qadağan edilmiş ov alətlərindən, elektrikli və elektroşok cihazlardan istifadə yolverilməzdir. Balıqçılıq fəaliyyəti zamanı istifadə olunan gəmilər və ov alətləri barədə məlumatların müvafiq informasiya sisteminə daxil edilməsi, balıqçı gəmilərində müəyyən edilmiş texniki nəzarət və izləmə vasitələrinin quraşdırılması da nəzərdə tutulur.

### Nəzarətdə müasir mexanizmlər

Yeni yanaşmanın mühüm istiqamətlərindən biri balıqçılıq fəaliyyətində şəffaflığın və operativ nəzarətin artırılmasıdır. Müasir informasiya və izləmə sistemlərinin tətbiqi balıqçı gəmilərinin fəaliyyətini, ov sahələri və istifadə olunan vasitələr barədə məlumatların daha dəqiq qeydə alınmasına imkan verəcək. Bu isə qanuni fəaliyyətlə qanunsuz ov hallarının fərqləndirilməsi, müəyyən edilmiş tələblərə əməl olunmasına nəzarətin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu yanaşma balıq ehtiyatlarının yalnız ov mövsümündə deyil, bütün il ərzində sistemli şəkildə qorunmasına xidmət edir. Qanunvericilikdə nəzərdə tutulan monitorinq və texniki nəzarət mexanizmləri balıq ovu fəaliyyətinin izlənilməsinə, qanun pozuntularının vaxtında müəyyənləşdirilməsinə, su bioresurslarının vəziyyətinin qiymətləndirilməsinə və mümkün mənfi halların qarşısının qabaqcadan alınmasına imkan verir.

### Mövsüm açılıb, nəzarət davam edir

Balıq ovu mövsümünün açılması ilə əlaqədar əsas məsələlərdən biri qanunsuz ov hallarının qarşısının alınmasıdır. Bu istiqamətdə Daxili İşlər Nazirliyi Nəqliyyatda Baş Polis İdarəsi Su Nəqliyyatında Polis İdarəsinin və Kənd Təsərrüfatı Nazirliyinin Balıqçılıq və Akvakultura Xidmətinin əməkdaşları tərəfindən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub hissəsində və ölkənin daxili su hövzələrində nəzarət tədbirləri davam etdirilir.

Su Nəqliyyatında Polis İdarəsinin fəaliyyəti su hövzələrində ictimai təhlükəsizliyin və hüquq qaydasının təmin edilməsi ilə yanaşı, qanunsuz balıq ovu, qadağan olunmuş vasitələrdən istifadə və digər hüquqazidd halların aşkar edilməsini də əhatə edir. Aidiyyəti dövlət qurumları ilə birgə keçirilən tədbirlər zamanı su bioresurslarının qanunsuz əldə edilməsinə cəhdlərin qarşısı alınır, aşkar edilən faktlarla bağlı qanunvericiliyə uyğun tədbirlər görülür.

Bu tədbirlər yalnız qanun pozuntusunun aşkar edilməsi ilə məhdudlaşmır. Eyni zamanda balıqçılıq fəaliyyəti ilə məşğul olan şəxslər arasında qanunvericiliyin tələblərinin izah edilməsi, müəyyən olunmuş ov qaydalarına riayət olunmasının təşviqi və su bioresurslarının qorunması ilə bağlı maarifləndirmə işi də mühüm əhəmiyyət daşıyır. Məqsəd qanunsuz ovun nəticələri ilə mübarizə aparmaqla yanaşı, belə halların baş verməsinin qarşısını əvvəlcədən almaqdır.

### Kürüləmə dövründə mühafizə xüsusi əhəmiyyət daşıyır

Balıqların kürüləmə dövründə tətbiq edilən mövsümi qadağanın əsas məqsədi onların təbii çoxalma prosesinin qorunması və balıq ehtiyatlarının bərpasına şərait yaradılmasıdır. Buna görə də mayın 1-dən sentyabrın 1-dək davam edən dövrdə nəzarət tədbirləri xüsusilə gücləndirilmişdi. Mövsümün açılması isə bu nəzarətin başa çatması deyil, onun yeni mərhələyə keçməsi deməkdir.

Təcrübələr onu göstərir ki, balıq ehtiyatlarının davamlı şəkildə qorunması üçün təkcə kürüləmə dövründə deyil, ilin bütün mərhələlərində qanuni ov prinsiplərinə əməl olunması vacibdir. Ov həcminin, istifadə olunan alətlərin və ov ərazilərinin müəyyən edilmiş tələblərə uyğunlaşdırılması su hövzələrinin bioloji tarazlığının qorunmasına xidmət edir. Əks halda qeyri-qanuni və həddindən artıq ov balıq ehtiyatlarının azalmasına və ekosistemin təbii bərpa imkanlarının zəifləməsinə gətirib çıxara bilər.

### Qanuni ov-qorunan təbiət

Yeni qanunvericiliyin əsas məqsədlərindən biri də balıqçılıq fəaliyyətinin iqtisadi maraqlarla yanaşı, ekoloji tələblərə uyğun şəkildə həyata keçirilməsidir. Xəzərin və digər su hövzələrinin balıq ehtiyatları tükənməz deyil. Qanunsuz və nəzarətsiz ov ayrı-ayrı növlərin azalmasına, kürütökmə prosesinin pozulmasına və bütövlükdə su ekosistemində tarazlığın dəyişməsinə səbəb ola bilər. Bu baxımdan Prezidentin “Balıqçılıq haqqında” Qanunun tətbiqi ilə bağlı imzaladığı Fərman balıqçılıq sahəsində proseslərin rəqəmsallaşdırılması, balıqçı gəmilərinin və ov fəaliyyətinin izlənilməsi, balıqovlama bileti və digər müasir nəzarət mexanizmlərinin tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır.

# Məktəb yollarında “Diqqət, uşaqlar!”

## Yeni tədris ili ilə əlaqədar uşaqların təhlükəsizliyi üçün polis nəzarəti gücləndirir

***Yeni dərs ilinin başlanması ilə küçə və yollarda hərəkətin xarakteri də dəyişir. Səhər saatlarında məktəbə tələsən uşaqlar, onları avtomobillə təhsil müəssisələrinə aparan valideynlər, dərsə gedən tələbələr və digər şəxslər yollarda hərəkət sıxlığının əvvəlkindən daha çox olmasına səbəb olur.***



Xüsusilə təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə nəqliyyat və piyada axınının artması yol hərəkətinin təhlükəsizliyinə daha ciddi yanaşmağı zəruri edir. Bu zaman əsas diqqət uşaqların məktəbə gedib-gələrkən təhlükəsizliyinin təmin olunmasına yönəldilir. Çünki uşaqların yol hərəkətində davranışı böyüklərdən fərqlənir. Onların diqqəti daha tez yayına, yaxınlaşmaqda olan nəqliyyat vasitəsinin sürətini və məsafəsini düzgün qiymətləndirməməsi isə təhlükəli vəziyyət yarada bilər. Bu səbəbdən yeni tədris ilinin başlanması ilə əlaqədar həm sürücülərin, həm valideynlərin, həm də piyadaların üzərinə xüsusi məsuliyyət düşür. Təhlükəsizliyin təmin olunması yalnız qəza baş verdikdən sonra tədbir görülməsi deyil, risklərin əvvəlcədən müəyyənləşdirilərək aradan qaldırılması deməkdir.

Məhz bu məqsədlə Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən ölkə ərazisində sentyabrın 5-dən oktyabrın 5-dək “Diqqət, uşaqlar!” devizi altında təhlükəsizlik aylığı keçiriləcək. Aylıq çərçivəsində uşaq və yeniyetmələrin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması, onların həyat və sağlamlığının qorunması istiqamətində nəzarət-profilaktiki tədbirlərin gücləndirilməsi nəzərdə tutulur.

### ►*Məktəb ətrafında nəzarət artır*

Yeni tədris ili ərəfəsində polis və digər aidiyyəti qurumlar tərəfindən təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə yol hərəkətinin təşkili və təhlükəsizlik vəziyyəti diqqətlə araşdırılır. Məktəblərin ətrafındakı yolların vəziyyəti, mövcud yol nişanları və nişanlanma xətləri nəzərdən keçirilir, aşkar olunan çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülür. Xüsusilə məktəblərin qarşısındakı piyada keçidlərinin, yol nişanlarının və yol hərəkətinin təhlükəsizliyinə xidmət edən digər texniki vasitələrin vəziyyətinə diqqət yetirilir. Bu işlərə paralel olaraq, təhsil müəssisələrinin ətrafında yol polisi əməkdaşlarının nəzarəti də gücləndirilir. Məqsəd məktəbə gedib-gələn uşaqların təhlükəsizliyini təmin etməklə yanaşı, həmin ərazilərdə yarana biləcək təhlükəli vəziyyətlərin qarşısını vaxtında almaqdır.

Yeni tədris ili ilə əlaqədar paytaxt yollarında nəqliyyat vasitələrinin hərəkət intensivliyinin artacağı da nəzərə alınır. Xüsusilə məktəblərin yerləşdiyi ərazilərdə səhər və günün sonunda avtomobillərin sayının artması burada əlavə sıxlıq yarada bilər. Bu baxımdan təhsil müəssisələrinin qarşısında, eləcə də həmin ərazilərə bitişik küçə və prospektlərdə vəziyyət nəzarətdə saxlanılacaq.

Nəqliyyat axınının fasiləsizliyini təmin etmək və sıxlığın qarşısını almaq məqsədilə müxtəlif istiqamətlər üzrə svetoforlarda “yaşıl dalğa” rejiminin tətbiqi də nəzərdə tutulur. Süni nəqliyyat sıxlığına səbəb olan hallar müşahidə edildikdə isə onların aradan qaldırılması istiqamətində zəruri tədbirlər görüləcək.

### ►*Bir neçə dəqiqəyə görə təhlükəsizliyi riskə atmaq olmaz*

Məktəblərin qarşısında yaranan sıxlığın əsas səbəblərindən biri valideynlərin şəxsi avtomobillərini uşağı düşürmək və ya götürmək üçün yolun hərəkət hissəsində, ikinci cərgədə və digər hərəkət iştirakçılarına mane olacaq şəkildə saxlamasıdır. Bu cür hallar yalnız nəqliyyatın hərəkətinə mane olmur, həm də uşaqlar üçün əlavə təhlükə yaradır. Bəzi sürücülər avtomobili dayanma və durmanın qadağan edildiyi yerlərdə, ictimai nəqliyyatın dayanacaq məntəqələrində və digər uyğun olmayan ərazilərdə saxlayaraq bir neçə dəqiqəlik işlərini həll etməyə çalışırlar. Lakin həmin bir neçə dəqiqə həm yolda sıxlığın yaranmasına, həm digər sürücülərin hərəkətinin məhdudlaşmasına, həm də piyada və xüsusilə uşaqların təhlükəsizliyinin riskə atılmasına səbəb ola bilər.

Bu səbəbdən valideynlərdən və özü sürücü olan tələbələrdən məktəblərin ətrafında yol hərəkəti qaydalarına ciddi əməl etmələri, nəqliyyat vasitələrini dayanma və durmanın qadağan edildiyi yerlərdə, yolun hərəkət hissəsinin ikinci cərgəsində, ictimai nəqliyyatın dayanacaq məntəqələrində saxlamamaları xahiş olunur. Avtomobillərin yerüstü və yeraltı dayanacaqlarda, eləcə də müəyyən edilmiş parklanma yerlərində saxlanılması həm yol hərəkətinin normal təşkilinə, həm də uşaqların təhlükəsizliyinə xidmət edir.

Təhlükəsizlik yalnız polis əməkdaşlarının nəzarəti ilə təmin olunan məsələ deyil. Bu istiqamətdə valideynlərin, təhsil işçilərinin və bütün hərəkət iştirakçılarının məsuliyyətli davranışı mühüm əhəmiyyət daşıyır. “Diqqət, uşaqlar!” təhlükəsizlik aylığı çərçivəsində təhsil işçiləri, valideynlər və ictimai təsisatlarla birgə təhsilalanlar arasında maarifləndirmə və təbliğat-təşviqat işinin də intensivləşdirilməsi nəzərdə tutulur. Uşağın yolda təhlükəsiz davranışını öyrənməsinin ən təsirli yollarından biri böyüklərin şəxsi nümunəsidir. Valideyn yolun yalnız müəyyən edilmiş keçiddən keçməli olduğunu övladına deyirsə, özü də bu qaydaya əməl etməli, sürücü uşağa təhlükəsizlik kəmərindən istifadə etməyi öyrədirsə, avtomobili hərəkətə gətirməzdən əvvəl həmin qaydanı özü də tətbiq etməlidir. Çünki uşaqlar çox vaxt deyilən sözdən daha çox gördüklərini mənimsəyirlər. Yeni tədris ilinin ilk günlərində küçə və yolların daha təhlükəsiz olması üçün görülən bütün bu tədbirlərin əsas məqsədi birdir – uşaqların məktəbə gedib-gələrkən həyat və sağlamlığını qorumaq.

Bu məqsədlə yol şəraitinin öyrənilməsi, məktəb ətrafında nəzarətin gücləndirilməsi, nəqliyyat axınının tənzimlənməsi, maarifləndirmə tədbirlərinin keçirilməsi və qayda pozuntularının qarşısının alınması istiqamətində polis əməkdaşlarının fəaliyyəti davam etdirilir. Yollarda təhlükəsizlik isə yalnız nəzarət və cəza tədbirləri ilə deyil, hər bir hərəkət iştirakçısının məsuliyyətli davranışı ilə başlayır. Xüsusilə yeni tədris ilində sürücülərin məktəb ətrafında daha diqqətli olması, sürət həddinə riayət etməsi, dayanma və parklanma qaydalarını pozmaması, valideynlərin isə uşaqlara yol hərəkəti qaydalarına əməl etməkdə şəxsi nümunə göstərməsi vacibdir.

# Vətəndaş məmnunluğu və peşəkar xidmət

## Təşəkkür məktubları polisə olan yüksək ictimai etimadın göstəricisidir

Cəmiyyətdə asayişin və təhlükəsizliyin etibarlı qorunması, eləcə də vətəndaşların hüquq və azadlıqlarının təmin olunması daxili işlər orqanlarının gündəlik fəaliyyətinin əsas qayəsini təşkil edir. Son illərdə həyata keçirilən ardıcıl islahatlar, vətəndaş müraciətlərinə xüsusi həssaslıqla yanaşılması və hər bir şikayətin obyektiv araşdırılması polis orqanlarına olan ictimai etimadı daha da möhkəmləndirib. Daxili İşlər Nazirliyinə, eləcə də qurumun rəsmi sosial şəbəkə hesablarına ünvanlanan çoxsaylı təşəkkür məktubları bu peşəkar fəaliyyətin bariz nümunəsidir.

Üzləşdiyi dələduzluq əməli ilə bağlı Nərimanov Rayon Polis İdarəsinə müraciət edən paytaxt sakini Ş.Məmmədovun müraciəti üzrə dərhal obyektiv araşdırma aparılıb. Qısa müddət ərzində görülən operativ tədbirlər nəticəsində məsələ müsbət həllini tapıb, vətəndaşa dəymiş maddi ziyanın ödənilməsi təmin olunub. Göstərilən diqqətə və operativliyə görə Ş.Məmmədov polis əməkdaşlarına öz minnətdarlığını ifadə edib.

Oxşar həssaslıq və operativ fəaliyyət digər bölgələrimizdə də özünü aydın göstərir. Pozulmuş hüquqlarının bərpası ilə bağlı DİN-ə müraciət edən daha bir vətəndaş Z.Zeynallının şikayətinə də dərhal reaksiya verilib. Naxçıvan Şəhər Polis İdarəsinin əməkdaşları tərəfindən aparılan obyektiv araşdırmalar nəticəsində problem qısa zamanda həllini tapıb. Vətəndaş müraciətində polisə öz dərin təşəkkürünü bildirib.

Polis əməkdaşlarının ayıq-sayıqlığı və operativliyi nəticəsində vətəndaşların itirilmiş əmlaklarının tapılaraq sahiblərinə təhvil verilməsi də razılıqla qarşılanır. Xətai Rayon Polis İdarəsinin 37-ci Polis Şöbəsinə itirdiyi çantası ilə bağlı müraciət edən İ.Nəsirli polis əməkdaşlarının operativliyi sayəsində qısa müddətdə çantasının tapılaraq ona təhvil verildiyini qeyd edib.

Milli Park ərazisində pul kisəsini və sənədlərini itirən T.Novruzovun müraciəti də analoji diqqətlə qarşılanıb. Səbail Rayon Polis İdarəsinin 9-cu Polis Şöbəsinin əməkdaşları bir gün ərzində itirilmiş pul kisəsini taparaq sahibinə təqdim ediblər. T.Novruzov DİN-in rəsmi “Instagram” səhifəsi vasitəsilə bölmənin əməkdaşlarına göstərdikləri dürüst və peşəkar xidmətə görə təşəkkür ünvanlayıb.

Yol-nəqliyyat hadisələri zamanı polis əməkdaşlarının sərgilədiyi obyektiv və maarifləndirici mövqe də vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Z.Bünyadov prospektində qəza törədən avtomobil sürücüsü R.Həmidov Nərimanov Rayon Polis İdarəsinin Təhqiqat Şöbəsinin əməkdaşları tərəfindən aparılan hərtərəfli araşdırmadan və göstərilən diqqətdən razı qaldığını bildirib. O, sosial şəbəkə vasitəsilə polisə təşəkkürünü ifadə edib. Nərimanov rayonunda baş vermiş digər yol-nəqliyyat hadisəsində idarə edilmiş avtobusla maddi ziyan dəyən sürücü E.Zərgərov da polis əməkdaşının qanunvericiliyin tələblərini dəqiq izah edərək dəyən ziyanın ödənilməsi qaydasını aydınlaşdırmasından məmnunluğunu qeyd edərək DİN rəhbərliyinə minnətdarlıq edib.

Gəncə şəhər sakini Ə.Əmrahovun DİN-ə ünvanladığı təşəkkür məktubunda isə yol polisinin gündəlik fəaliyyətindəki etik davranış standartları ön plana çəkilib. Vətəndaş yüksək peşəkarlığa, sürücülərlə nəzakətli və mədəni davranışa görə polis əməkdaşlarına xüsusi minnətdarlığını bildirib.

Müxtəlif mövzularda ünvanlanan bu təşəkkür məktubları bir daha sübut edir ki, Azərbaycan polisi hər bir vətəndaşın çətin anında yanında olan, onun hüquqlarını qoruyan və əmin-amanlığını təmin edən etibarlı dayaqlardan biridir.

Görülən operativ işlər, vətəndaş məmnunluğuna yönəlmiş addımlar və peşəkar xidmət polis-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə yüksəldiyini aydın şəkildə nümayiş etdirir.

*A.Tahirova*

# Narkotikin təsiri altında sükan arxasında

## Qaydaları dəfələrlə pozan sürücü həbs olundu



Xətai Rayon Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən profilaktik tədbirlər zamanı “Chevrolet” markalı avtomobili dövlət qeydiyyat nişanı olmadan, konstruksiyasında dəyişiklik etməklə və nəqliyyat vasitəsinin şüşələrinə normativ tələblərə uyğun olmayan qara plyonka çəkməklə idarə edən 44 yaşlı M.Əfəndiyev saxlanılıb.

Aparılan yoxlama zamanı M.Əfəndiyevin nəqliyyat vasitəsini idarə etmək hüququnun olmadığı da müəyyən edilib. Həmçinin sürücünün hərəkətləri şübhə doğurduğundan onun tibbi müayinədən keçməsi təmin olunub. Müayinənin nəticəsinə əsasən M.Əfəndiyevin narkotik vasitə qəbul etdiyi müəyyənləşib. Sürücü barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilib.

Məhkəmənin qərarı ilə M.Əfəndiyev 15 gün müddətinə inzibati qaydada həbs edilib.

# “Qara qızıl” həvəskarlarının uğursuz ovu

## Polis neft kəmərindən oğurluğa cəhd edən şəxsləri saxlayıb

Sabunçu rayonu Maştağa qəsəbəsi, Savalan yaşayış massivinin yaxınlığından keçən magistral yeraltı neft kəmərində yanğın baş verməsi barədə polisə məlumat daxil olub. Yanğın söndürüldükdən sonra əraziyə baxış zamanı neft kəmərinə qanunsuz müdaxilə məqsədi ilə əlavə avadanlıqların quraşdırıldığı müəyyən edilib. Polis əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə neft kəmərinə qanunsuz müdaxilə edərək oradan oğurluğa cəhd göstərməkdə şübhəli bilinən 31 yaşlı K.Əliyev və əvvəllər məhkum olunmuş 29 yaşlı A.Yaqubov müəyyən olunaraq saxlanılıblar. Qeyd edək ki, yanğın hadisəsinin də məhz bu şəxslərin neft kəmərinə qanunsuz müdaxiləsi səbəbindən baş verdiyi müəyyən edilib.

Faktla bağlı araşdırma aparılır.

# Mənzil vədi ilə qurulan tələ

## Vətəndaşın etibarından sui-istifadə edən şəxs saxlanılıb

Binəqədi Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə bir nəfərin etibarından sui-istifadə edərək onun maddi vəsaitini ələ keçirməkdə şübhəli bilinən 42 yaşlı X.Məmmədov saxlanılıb.

Araşdırmalarla saxlanılan şəxsin zərərçəkənə mənzil almaqda köməklik edəcəyi ilə bağlı yalan vəd verərək dələduzluq etdiyi və ümumilikdə 15 min manat pulunu mənimsədiyi müəyyən olunub.

Faktla bağlı cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə saxlanılan şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

# Narkotacirlərə növbəti zərbə

## Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı tədbirlər davam edir

Şabran Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə narkotik tərkibli bitkiləri qanunsuz olaraq kultivasiya etməkdə şübhəli bilinən 60 yaşlı S.İbrahimov saxlanılıb. Ona məxsus həyətyanı sahəyə baxış zamanı qulluq edilərək yetişdirilən, ümumi çəkisi 10 kiloqram olan narkotik tərkibli kollar aşkarlanıb.

Faktla bağlı cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə S.İbrahimovun barəsində həbs qətimkan tədbiri seçilib.

Həmçinin Suraxanı Rayon Polis İdarəsinin 33-cü Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyat keçirilib. Tədbirlərlə bu əməldə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 46 yaşlı S.Baxşıyev saxlanılıb. Onun üzərindən 14 kiloqrama yaxın narkotik vasitə aşkarlanaraq götürülüb.

Faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.

# Kriminalistin çantasında hansı sirlər gizlənir?

## Cinayətin izlərini üzə çıxaran alətlər

**Telefon zəngi gəlir. Hadisə yerinə getmək lazımdır. Kriminalist çantasını götürür və yola çıxır. Kənardan baxanda bu adi bir çantadır. Amma onun içində bir cinayətin gedişatını dəyişə biləcək qədər vacib vasitələr var. Kriminalistin işi yalnız hadisə yerinə baxmaqdan ibarət deyil. O, orada qalan hər bir detalın nə demək olduğunu müəyyənləşdirməli, həmin detalı olduğu kimi sənədləşdirməli və sübutun sonrakı mərhələlərdə öz əhəmiyyətini itirməməsini təmin etməlidir. Buna görə də kriminalistin çantasında bir-birindən tamamilə fərqli görünən, amma eyni məqsədə xidmət edən çoxsaylı vasitələr olur.**

### *Təhlükəsizlikdən başlayan araşdırma*

İlk növbədə təhlükəsizlik ön plana çıxır. Əlcək, maska, qoruyucu geyim və ayaqqabı örtüyü yalnız kriminalistin özünü qoruması üçün deyil. Hadisə yerinə əlavə iz gətirməmək, mövcud izləri çirkləndirməmək də sübutun tapılması qədər vacibdir. Çünki bəzən barmaq izi qədər əhəmiyyətli olan başqa bir iz diqqətsizlik ucbatından itə bilər. Sonra kamera işə düşür. Hadisə yerində heç nə təsadüfi çəkilmir. Əvvəl ümumi mənzərə, daha sonra ayrı-ayrı sahələr və nəhayət, sübutlar sənədləşdirilir. Bir əşyanın harada yerləşməsi, digər obyektlərə olan məsafəsi, izlərin vəziyyəti sonradan hadisənin necə baş verdiyini anlamağa kömək edə bilər. Bu səbəbdən kriminalistin kamerası sadəcə fotoaparat deyil, hadisə yerinin yaddaşıdır.

Barmaq izlərinə gəldikdə isə çantadakı xüsusi fırçalar, tozlar və iz götürmə vasitələri işə düşür. Çılpaq gözlə görünməyən bir iz düzgün işıqlandırma və xüsusi üsulla üzə çıxarıla bilər. Məhz burada kriminalistin diqqəti ön plana keçir. Çünki hər parlaq səthdə görünən iz faydalı olmaya bilər, hər görünməyən iz isə əhəmiyyətsiz deyil.

### *Kiçik detal, böyük sübut*

Çantanın başqa bir hissəsində müxtəlif ölçülü maqqaşlar və xırda nümunələri götürmək üçün vasitələr yerləşir. Parça lifindən tutmuş kiçik hissəciklərə qədər hər bir detal sonradan əhəmiyyətli ola bilər. Buna görə də tapılan sübutun özü qədər onun necə götürülməsi də vacibdir. Hər bir iz ayrıca qablaşdırılır, uyğun material seçilir və üzərinə zəruri məlumatlar qeyd olunur. Sübut hadisə yerindən laboratoriyaya çatdırılanadək lazımi qaydada qorunmalıdır.

Bəzən isə adi göz kifayət etmir. Belə hallarda xüsusi işıq mənbələri köməyə gəlir. Müəyyən dalğa uzunluğunda işıq altında bəzi bioloji və digər izlər adi şəraitdəkindən daha aydın görünə bilər. Kriminalistin peşəkarlığı məhz belə məqamlarda üzə çıxır - ilk baxışda görünməyən izi aşkar etmək, onun əhəmiyyətini düzgün qiymətləndirmək və dəqiq şəkildə sənədləşdirmək.

Hadisə yerində ayaq və ayaqqabı izləri də xüsusi əhəmiyyət daşıya bilər. Bu izlərin ölçüsü, forması və yerləşməsi hərəkət istiqaməti barədə məlumat verə bilər. Nəqliyyat vasitələrinin təkər izləri də hadisənin müəyyən məqamlarını aydınlaşdırmağa kömək edir. Buna görə ölçü lenti, miqyas və digər sənədləşdirmə vasitələri kriminalistin çantasının vacib hissəsidir.

Bu çantada bəlkə də ən sadə görünən, amma ən vacib vasitələrdən biri qablaşdırma materiallarıdır. Kağız zərflər, xüsusi paketlər, qablar, möhürləmə və işarələmə vasitələri sübutların qorunmasına xidmət edir. Çünki düzgün tapılmış, lakin düzgün qablaşdırılmamış sübut öz əhəmiyyətini itirə bilər.

### *Rəqəmsal izlər*

Müasir cinayətlərin izləri artıq yalnız fiziki əşyaların üzərində qalmır. Telefon, kompüter, yaddaş qurğusu və digər elektron daşıyıcılar da hadisənin mühüm hissəsinə çevrilə bilər. Belə hallarda rəqəmsal sübutların qorunması üçün xüsusi vasitələrdən istifadə edilir. Yəni kriminalistin çantası zamanla dəyişir: bir vaxtlar əsas diqqət barmaq və ayaq izlərinə yönəlirdisə, bu gün rəqəmsal izlər də istintaq üçün mühüm əhəmiyyət daşıyır.



Bütün bunların arasında bir vasitə isə çantaya sığmır - kriminalistin öz diqqəti. Çünki ən müasir kamera, ən həssas işıq mənbəyi və ən peşəkar avadanlıq belə düzgün müşahidənin yerini verə bilməz. Hadisə yerində bəzən hamının yanından keçdiyi kiçik bir detal əsas sualın cavabına çevrilir. Kriminalistin peşəkarlığı da məhz həmin detalı görmək, onu düzgün qiymətləndirmək və sübuta çevrilə biləcək şəkildə qorumaq bacarığında üzə çıxır.

Bir çantanın içində bu qədər müxtəlif vasitənin olması təsadüfi deyil. Onların hər biri eyni məqsədə xidmət edir: hadisə yerinin danışmadığı həqiqəti izlər vasitəsilə üzə çıxarmaq. Kriminalist hadisə yerindən ayrıldıqdan sonra orada bəzən yalnız boş bir məkan qalır. Amma onun çantasında artıq həmin məkanın yaddaşı var - fotolar, izlər, nümunələr, ölçülər və qablaşdırılmış sübutlar. Hadisə yerində sözlər deyil, izlər danışır - yetər ki, onları düzgün oxumağı bacarasan.

*Aytən Tahirova*

# Döymələri onu ələ verdi

## Uzun müddət İspaniyada gizlənən britaniyalı qaçaq saxlanılıb




İspaniyanın Madrid şəhərində Böyük Britaniyanın ən çox axtarılan şəxslərindən biri saxlanılıb. 37 yaşlı Con Roks uzun müddət hüquq-mühafizə orqanlarından gizlənməyə çalışsa da, xarici görünüşündəki fərqləndirici əlamətlər onun kimliyinin müəyyənləşdirilməsində mühüm rol oynayıb. İspaniya Milli Polisinin məlumatına görə, C.Roksun axtarışı istiqamətində tədbirlərə 2024-cü ildən başlanılıb. Aparılan araşdırmalar zamanı onun əlaqələri, hərəkət istiqamətləri və ola biləcəyi ünvanlar müəyyənləşdirilib. Polisin diqqətini çəkən əsas əlamətlər isə C.Roksun boynundakı "JR" hərflərindən ibarət döymə, qollarındakı digər döymələr, üzündəki çapıq və təxminən 1,95 metr boyu olub. Keçirilən tədbirlər nəticəsində onun Madriddə olduğu müəyyənləşdirilib və o, kafelərdən birində saxlanılıb. Həmin vaxt C.Roks papaq və gün eynəyindən istifadə etməklə görünüşünü dəyişməyə çalışıb və üzərində şəxsiyyətini təsdiq edən heç bir sənəd olmayıb.

Saxlanılarkən başqa şəxsin adını söyləyən Roks xarici görünüşündəki fərqləndirici əlamətlərlə polisin şübhəsini daha da artırıb. Götürülən barmaq izlərinin məlumat bazasında yoxlanılması nəticəsində onun axtarışda olduğu təsdiqlənib.

Hazırda saxlanılan şəxsin ölkəsinə ekstradisiyası ilə bağlı məsələyə məhkəmə tərəfindən baxılır.

# Onlayn dələduzluq şəbəkəsinə qarşı genişmiqyaslı tədbirlər

## Əməliyyatlar dünyanın 97 ölkəsində baş tutub

Sosial mühəndislik və onlayn dələduzluqla məşğul olan cinayətkar şəbəkələrə qarşı dünyanın müxtəlif ölkələrində keçirilən genişmiqyaslı beynəlxalq əməliyyatın nəticələri açıqlanıb. "First Light 2026" adı altında həyata keçirilən əməliyyat 97 ölkəni əhatə edib. Tədbirlər nəticəsində 5 811 nəfər saxlanılıb, 293 milyon ABŞ dolları dəyərində qanunsuz maliyyə aktivləri bloklanıb. Əməliyyatın əsas hədəfi insanların etimadından və psixoloji zəifliklərindən istifadə etməklə pul və ya məxfi məlumat əldə edən cinayətkar şəbəkələr olub. Araşdırmalar zamanı biznes yazışmalarının saxtalaşdırılması, tanışlıq münasibətlər adı altında dələduzluq, saxta investisiya təklifləri, müxtəlif şəxslərin və qurumların adından istifadə edilməsi və digər sosial mühəndislik üsulları ilə bağlı çoxsaylı faktlar müəyyənləşdirilib. Ümumilikdə 142 mindən çox zərərçəkmiş müəyyən edilib və 31 mindən çox bank hesabı bloklanıb. Əməliyyatın diqqətçəkən məqamlarından biri Afrika qitəsinin cənubunda yerləşən Esvatini Krallığında aşkarlanan cinayətkar şəbəkə olub. Polis burada qa-



nunsuz onlayn qumar, çirkli pulların yuyulması, həmçinin özünü başqa şəxslər, o cümlədən hüquq-mühafizə orqanlarının əməkdaşı kimi təqdim etməklə həyata keçirilən dələduzluq sxemini üzə çıxarıb. Nəticədə 82 nəfər saxlanılıb, 240 elektron cihaz və digər materiallar maddi sübut kimi götürülüb. Əməliyyat zamanı cinayətkarların qurbanları aldatmaq üçün qurduqları saxta polis infrastrukturu da diqqət çəkib. Ərazidə Braziliya Federal Polisinin inzibati binalarını xatırladan polis məntəqəsi, geyimlər, lövhələr və müxtəlif avadanlıqlar aşkarlanıb. Dələduzlar özlərini Braziliya polisi kimi qələmə verərək vətəndaşların vəsaitlərini "təhlükəsizlik" adı altında mənimsəyiblər. Əməliyyatla bank və virtual hesablar bloklanıb, qanunsuz maliyyə axınlarının qarşısı alınıb.

# Dünya polisinin maraqlı təcrübələri

## Müxtəlif ölkələrdə polis təhlükəsizliyi necə təmin edir?







Təhlükəsizlik insanların həyatının, hüquqlarının, əmlakının və ictimai asayişinin qorunmasına xidmət edir. Lakin tətbiq olunan üsullar ölkələrin tarixi, idarəetməsi, sosial mühiti və texnoloji imkanlarından asılı olaraq dəyişir. Müasir polis yalnız cinayətlərin araşdırılması ilə məhdudlaşmır; riskləri əvvəlcədən qiymətləndirməli, vətəndaşlarla təmasda olmalı, digər qurumlarla əməkdaşlıq etməli və texnologiyadan səmərəli faydalanmalıdır.

### ►Yaponiyanın "Koban" modeli

Yaponiyanın "Koban" sistemi konkret əraziyə xidmət göstərən kiçik polis məntəqələridir. Əməkdaşlar küçələri, obyektləri və yerli problemləri yaxşı tanıdıqları üçün riskləri əvvəlcədən müəyyənləşdirirlər. Onlar müraciətləri qəbul edir, itmiş uşaq və əşyaların tapılmasına kömək edir, yol təhlükəsizliyini təmin edir və profilaktik söhbətlər aparırlar. Polisin ehtiyac anında müraciət ediləcək tanış simaya çevrilməsi cəmiyyətdə qarşılıqlı etimadı artırır və məlumat paylaşmasını asanlaşdırır.

### ►Niderland və Böyük Britaniya təcrübəsi

Niderlandda "wijkagent" adlanan məhəllə polisi fəaliyyət göstərir. Onun vəzifəsi yalnız hüquq pozuntusuna müdaxilə etmək deyil, sakinləri və yerli problemləri yaxından tanımaqdır. Münaqişələr və sosial çətinliklər vaxtında həll olunmadıqda ciddi problemlərə çevrilə bilər. Belə hallarda polis bələdiyyə, sosial xidmətlər və digər qurumlarla əməkdaşlıq edərək məsələyə sosial baxımdan da yanaşır.

Böyük Britaniyada isə məhəllə polisinin gücləndirilməsi vasitəsilə vətəndaşlarla əlaqələrin genişləndirilməsinə və sakinlərin təhlükəsizlik məsələlərində fəal iştirakına xüsusi diqqət yetirilir.

### ►Robotlar, dronlar və süni intellekt: Sinqapurun gələcəyə baxışı

Sinqapur polis xidmətində avtonom dronlar, patrul robotları və süni intellektdən geniş istifadə olunur. İnsanlarla ünsiyyət quran "CERA" robotu və nəqliyyat qovşaqlarında patrul aparan robotlar müşahidə imkanlarını artırır, gündəlik işləri avtomatlaşdırır. Süni intellekt əsaslı "R-COP" sistemi isə vətəndaşlara polis hesabatlarının hazırlanmasında kömək edir. Bu texnologiyalar polisi əvəz etmir, sadəcə onun imkanlarını genişləndirir. Çünki gərgin vəziyyətdə qərar qəbul etmək və səmimi ünsiyyət üçün insan amili vacibdir.

### ►Təhlükəsizliyin əsas şərti

Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, təhlükəsizlik yalnız texnika və polis sayının artırılması ilə təmin olunmur; cəmiyyətlə qurulan münasibətlər mühüm rol oynayır. "Koban" polisin məhəlləyə yaxınlığını, Niderland yerli problemlərin sosial həllini, Böyük Britaniya icmanın iştirakını, Sinqapur isə texnologiyanın gücünü nümayiş etdirir.

Uğurlu modeli olduğu kimi başqa ölkəyə köçürmək fərqli qanunvericilik və sosial şərtlərə görə mümkün deyil. Məqsəd hazır modeli kopyalamaq deyil, onun uğurlu yanaşmalarından faydalanmaqdır. Gələcəyin polis xidmətində küçədə insanlarla ünsiyyət quran əməkdaşla böyük həcmdə məlumatı təhlil edən süni intellekt eyni sistemin fərqli tərəflərinə çevriləcək.

Üsullar fərqli olsa da, məqsəd birdir: polis və vətəndaş əməkdaşlığı ilə daha təhlükəsiz cəmiyyət yaratmaq.

*A.Tahirova*

POLIS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik